# Turqutlular

**I Şah İsmayıl dövrü (1501 – 1524)**

Çağdaş və mötəbər, yazarı gizlin qaynağımızda hicri 906-cı (1500-1501) ildə Ərzincanda İsmayılın qatına gələnlər arasında Qaram Eli xalqından da müridlərin bulunduğu söylənir. Gerçəkdən də Şah İsmayıl Qaraman Oğulları ilə qudalıq qurmuş, ən mötəbər boybəyi ailəsi olan Turqut Oğullarından Musa Bəyə hicri 918-ci (1512) ildə göndərdiyi Türkcə bir məktubda Qaramanlı Əhməd Ağanın istəyi üzrə hərəkət olunmasını və onunla söz birliyi edərək vaqe olan işlərin bildirilməsini yazmaqdadır. Biz Şah İsmayılın ölümündən beş il sonra (hicri 935 = 1528-1529) Təhmasibin əmirləri arasında Turqut Oğlu Həsən Sultanı görürük. Həsən Sultan adı keçən hökmdarın eyni ildə etdiyi Xorasan səfərinə qatılmışdı. Şikarinin Qaraman Oğulları tarixində Qaraman Oğlu Qasım Bəyin çəribaşısı (sərkərdəsi) Pir Bayram ilə yenə böyük əmirlərdən Kökəz Oğlunun altı min ər ilə Şah İsmayılın xidmətinə girib, Təbrizi Şaha alıb verdikləri və Xorasan cəngində Kökəzi (oğlu olacaq) və Pir Bayramı tutub öldürdükləri deyilir. Şikarinin bu sözləri Qaraman Oğulları bəy və əsgərlərindən bir qisminin Səfəvi dövlətinin quruluşuna qatıldıqlarını doğrulaması baxımından şübhəsiz bir dəyər daşımaqdadır. Həsən Sultandan başqa yenə Turqut Oğullarından Qasım Əli adlı bir bəyin də Səfəvi dövləti xidmətində bulunduğu görünür. Turqut Oğullarından Qanuninin oğlu Şahzadə Bəyazidin ən başda gələn əmirlərindən Pir Hüseyin Bəy də Bəyazid ilə birlikdə İrana getmiş və Bəyazidin öldürülməsindən sonra həyatına toxunulmamışdı.

**I Şah Təhmasib dövrü (1524 – 1576)**

Bu oymaqdan Turqut (Dorqut) Oğlu Həsən (yaxud Hüseyin) Sultanın Cağataylar ilə hicri 935-də (1528-1529) edilən savaşda bulunduğundan, əvvəlcə bəhs edilmişdir.Yenə bu ünlü ailədən Qasım Bəyin hicri 965-də (1558) Türkmən Aba üzərinə edilən səfərə qatıldığını bilirik. Yenə eyni ailədən Pir Hüseyin Bəyin Şahzadə Bəyazid ilə birlikdə İrana gəldiyi və Bəyazidin Osmanlı elçilərinə təslimindən sonra sərbəst buraxıldığı daha öncə qeyd edilmişdi. Bu zikr edilənlərdən başqa Turqutlulara dair bir qeydə rast gəlinmir.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**